BAKTELECOM

**Telekommunikasiya xidmətlərinə qoşulma və xidmətlərdən istifadə ilə bağlı "Telekommunikasiya operatoru" ilə "Abunəçi" arasında**

# M Ü Q A V İ L Ə

**Bakı şəhəri** **"_____"____________201_____il**

**Bu Müqavilə bundan sonra "Telekommunikasiya operatoru" adlanacaq "Bakı Telefon Rabitəsi" MMC Rövşən Bafa oğlu Əliyev şəxsində bir tərəfdən və digər tərəfdən**

**_____________________________________________________________________________________________**
**_____________________________________________________________________________ (bundan sonra "Abunəçi" adlanacaq) arasında telekommunikasiya xidmətlərinin göstərilməsi məqsədi ilə bağlanılır.**

**1 MÜQAVİLƏNİN MƏQSƏDİ**

**1.1. Bu Müqavilə "Telekommunikasiya operatoru" ilə "Abunəçi" arasında "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Abunəçi"nin telekommunikasiya xidmətlərinə qoşulması, ona Müqavilədə göstərilən qaydada seçdiyi telekommunikasiya xidmətlərinin göstərilməsi və "Abunəçi" tərəfindən bu xidmətlərin dəyərinin ödənilməsi ilə bağlı münasibətləri tənzimləyir.**

**2 TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ**

**2.1 "Telekommunikasiya operatoru"nun hüquq və vəzifələri:**

**2.1.1. Telekommunikasiya sahəsində qüvvədə olan qanunvericiliyə,digər normativ hüquqi aktlara və öz Nizamnaməsinə uyğun fəaliyyət və xidmət göstərmək;**

**2.1.2. "Abunəçi"ni müəyyən edilmiş standart, norma və qaydalara uyğun olaraq keyfiyyətli və fasiləsiz telekommunikasiya xidmətləri ilə təmin etmək;**

**2.1.3. "Abunəçi"nin müraciətinə əsasən, xidmətdə yaranmış texniki problemlərin aradan qaldırılmasını təmin etmək;**

**2.1.4. "Abunəçi" tərəfindən ixtisaslaşdırılmış təcili yardım xidmətlərinin (yanğından mühafizə (101), polis (102), təcili tibbi yardım (103), qaz (104) və elektrik qəza xidməti (199, 186), fövqəladə hallar (112) və qanunvericilikdə nəzərdə tutulan digər bu kimi xidmətlərin (insan alveri ilə bağlı Daxili İşlər Nazirliyinin qaynar xətti-152, antikorrupsiya idarəsi-161) çağırılması üçün telekommunikasiya şəbəkələrindən ödənişsiz istifadəni təmin etmək;**

**2.1.5. "Abunəçi"nin müraciətinə əsasən telekommunikasiya xidmətlərinin (telefon (məftilli və simsiz), internet və digər genişzolaqlı xidmətlər) qoşulmasını və dayandırılmasını mövcud qaydalara uyğun təmin etmək;**

**2.1.6. "Abunəçi"nin xidmət tarifləri, qanunvericiliklə müəyyən edilmiş digər zəruri məlumat və qaydalarla tanış olmasına şərait yaratmaq;**

**2.1.7. Telekommunikasiya xidmətlərinin tariflərində dəyişikliklər olduqda "Abunəçi"ləri kütləvi informasiya vasitələri və digər vasitələrlə məlumatlandırmaq;**

**2.1.8. Göstərdiyi xidmətlərin haqlarının yığımını təşkil etmək;**

**2.1.9. Müqavilə şərtlərinə əməl etməyən "Abunəçi"yə telekommunikasiya xidmətlərinin göstərilməsini bu Müqaviləyə uyğun olaraq dayandırmaq;**

**2.1.10. Qanunvericiliyə uyğun olaraq "Abunəçi"nin müraciətlərinə baxmaq,onun qəbulunu təşkil etmək və müraciətlərini cavablandırmaq;**

**2.1.11. "Abunəçi"ni göstərdiyi telekommunikasiya xidmətlərinin siyahısı ilə tanış etmək, o cümlədən, müqavilə bağlanan anda göstərilməyən, lakin sonradan həyata keçirilməsinə başlanılmış xidmətlər barədə məlumatlandırmaq;**

**2.1.12. Həyata keçirilən kampaniyalar, müştəriyönümlü tədbirlər və aksiyalar, abunəçinin borcları, yeni xidmətlər və s. barəsində bildirişlər, sms-lər, mobil və stasionar telefona zənglərin edilməsi, elektron məktubların göndərilməsi və s. bu kimi vasitələrlə abunəçilərə məlumat vermək. Bu məlumatları əldə etmək istəyən abunəçilər qeyd edilən məlumatları əldə etmək istədiyi əlaqə vasitələrini ayrıca göstərə bilərlər;**

**2.1.13. Abunəçinin müraciəti əsasında uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması üçün internet informasiya ehtiyatlarından təhlükəsiz istifadə imkanlarını təmin etmək;**

**2.1.14. Operator və abunəçi arasında bağlanmış müqavilədə müəyyən edilən istifadə qaydalarına riayət etməyən abunəçilərə telekommunikasiya xidmətlərinin göstərilməsini birtərfli məhdudlaşdırmaq, müqaviləni birtəfli qaydada ləğv etmək;**

**2.1.15. Abunəçinin qoşduğu son avadanlıqların operatorun şəbəkəsinin istismarını, bütövlüyü¬nü, qarşılıqlı bağlantısını, informasiya mühafizəsini, radioelektron vasitələrinin elektro¬maqnit uyğunluğunu təhlükə altına qoyduğuna və ya abunəçi tərəfindən müqavilə tələblərinin digər şəkildə pozulduğuna dair əsaslı şübhələr olduqda, abunəçinin son qoşulma avadanlıqlarına baxış keçirmək;**

**2.1.16. Qanunvericiliklə müəyyən edilmiş digər hüquq və vəzifələri həyata keçirmək.**

**2.2. "Abunəçi"nin hüquq və vəzifələri:**

**2.2.3. Keyfiyyətli telekommunikasiya xidmətlərini tələb etmək;**

**2.2.4. Operatordan göstərilən xidmətlərlə bağlı izahatlar və məlumatlar almaq;**

2.2.5. Xidmətin seçilməsinə dair müraciət formasını doldurmaqla, seçdiyi telekommunikasiya xidmətindən Müqavilə şərtlərinə uyğun istifadə etmək;
2.2.6. Seçdiyi xidmətlərin müqavilə şərtlərinə uyğun olaraq göstərilməsini telekommunikasiya operatorundan tələb etmək;
2.2.7. Xidmətlərin göstərilməsi zamanı yaranan çatışmazlıqlarla əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət etmək;
2.2.8. Telekomunikasiya xidmətlərindən istifadə ilə bağlı qanunvericiliyin tələblərinə və Müqavilə şərtlərinə əməl etmək;
2.2.9. Telekommunikasiya şəbəkələrinin istismarını, bütövlüyünü, fasiləsizliyini, qarşılıqlı bağlantısını, informasiya mühafizəsini, radioelektron vasitələrinin elektromaqnit uyğunluğunu təhlükə altına qoyan, habelə digər subyektlər üçün telekommunikasiya xidmətlərinin göstərilməsini çətinləşdirən, yaxud qeyri-mümkün edən əməllərə yol verməmək, qeyri standart avadanlıqlardan istifadə etməmək və qanunvericiliklə müəyyən edilmiş standartlara, eləcə də digər tələblərə uyğun olmayan son avadanlıq qoşmamaq;
2.2.10. İstifadə etdiyi telekommunikasiya xidmətlərinin ödəniş haqlarını Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə ödəmək;
2.2.11. Telekommunikasiya xəttinə qoşulmuş son avadanlığın standartlara uyğunluğunun yoxlanılması məqsədilə “Telekommunikasiya operatoru”nun səlahiyyətli nümayəndəsinə son avadanlığa baxış keçirməsinə şərait yaratmaq;
2.2.12. Qazanc məqsədilə üçüncü şəxslərə telekommunikasiya xidmətləri göstərməmək və belə xidmətlərin göstərilməsinə şərait yaratmamaq;
2.2.13. Ünvanının və ya xidmət kateqoriyasının (əhali və ya qeyri-əhali) dəyişdirilməsindən 10 gün əvvəl “Telekommunikasiya operatoru”na bu barədə məlumat vermək;
2.2.14. Telekommunikasiya xidmətində nasazlıq yaranarsa, “Telekommunikasiya operatoru”na (122, 155 xidmətinə) müraciət etmək;
2.2.15. Fövqəladə hadisələr baş verdiyi zaman fövqəladə hallar, polis, təcili yardım və s. xidmət işçilərinin telefon xidmətindən maneəsiz istifadə etməsinə şərait yaratmaq;
2.2.16. “Telekommunikasiya operatoru” tərəfindən təmin olunan və onun mülkiyyətində qalan avadanlıqlardan düzgün istifadə edilməsini təmin etmək, abunəçinin təqsiri üzündən həmin avadanlıqlar yararsız hala salındığı təqdirdə, onların təmir xərclərini ödəmək təmir mümkünsüz olduğu halda, yenisinin alınmasını təmin etmək;
2.2.17. Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması üçün tədbirlər görülməsini tələb etmək;
2.2.18. Qanunvericiliklə müəyyən edilmiş digər hüquq vəvəzifələri həyata keçirmək.
2.3. Yeni texnologiyalarla (GPON və s. ) təşkil edilmiş telekommunikasiya xidmətlərindən istifadə edən abunəçi qəbul edir ki, onun ünvanında elektrik enerjisinin kəsilməsinə görə xidmətlərdə yaranmış fasiləyə görə Telekommunikasiya operatoru məsuliyyət daşımır;

3. ÖDƏNİŞ ŞƏRTLƏRİ

3.1. Abunəçi telekommunikasiya xidmətlərindən müvafiq ödənişlər etməklə istifadə edir. Xidmət haqları Tarif (Qiymət) Şurasının təsdiq etdiyi tariflərə və “Telekommunikasiya operatoru”nun müəyyən etdiyi və internet saytında, eləcə də xidmət mərkəzlərində açıq nümayiş olunan xidmətlərin tarif cədvəlinə uyğun qaydada hesablanır və ödənilir;
3.2. Telekommunikasiya xidmətlərinə qoşulma təmin edildikdən sonra birdəfəlik qoşulma haqqı və cari aya görə ödənilmiş abunə haqqı geri qaytarılmır;
3.3. “Abunəçi” tərəfindən istifadə edilmiş xidmətlərin dəyəri müvafiq tariflərə uyğun olaraq aylıq hesablanır və ödənilir.
3.4. Əhali qrupundan olan abunəçilər tərəfindən telefon rabitəsi, multimedia və internet xidmətlərindən istifadəyə görə aylıq abunə haqqı cari ayın 05-dək ödənilir.Cari ay ərzində istifadə edilmiş xidmətlərin haqqı isə növbəti ayın 05-dək ödənilir. Qeyri-əhali qrupundan olan abunəçilər (fərdi sahibkarlar və hüquqi şəxslər) tərəfindən istifadə edilən telekommunikasiya xidmətlərinə görə ödənişlər hər bir növbəti ayın 05-dək, təqdim edilmiş elektron qaimə-fakturaya uyğun ödənilir.
3.5. Telefon rabitəsi xidmətlərindən istifadəyə görə hesablanmış xidmət haqlarını vaxtında ödəməyən abunəçilər üçün xidmətin dayandırılması və bərpası bu Müqaviləyə uyğun olaraq həyata keçirilir. Digər xidmətlər üzrə xidmət haqqı Müqavilədə qeyd olunan tarixədək ödənilmədikdə xidmətlərin göstərilməsi “Telekommunikasiya operatoru” tərəfindən dərhal dayandırılır. Xidmətlər dayandırıldıqdan sonrakı 25 gün ərzində abunəçi yaranmış borcunu ödəməklə onları bərpa edə bilər. Qeyd edilən müddətdə xidmətləri bərpa etdirməyən “Abunəçi” onlardan yenidən istifadəni arzu edərsə,“Abunəçi” ilə yeni müqavilə bağlanılır;
3.6. Telefon rabitəsi xidmətinə görə abunə haqqını 3.4-cü bənddə göstərilən müddətdə ödəməyən abunəçinin xidmətlərdən istifadəsi birtərəfli məhdudlaşdırılır (ixtisaslaşdırılmış qısa nömrələrə zənglər istisna olmaqla, çıxış zəngləri dayandırılır). Xidmət haqqı birtərəfli məhdudlaşdırmadan sonrakı ayın sonunadək ödənilmədikdə xidmətdən istifadə dayandırılır. Abunəçi xidmətin dayandırılmasından sonra növbəti 3 (üç) ay ərzində yaranmış borcu ödədiyi halda xidmət bərpa edilir. Əks halda, onunla bağlanmış müqaviləyə xitam verilir və nömrə abunəçinin adından çıxarılır. Göstərilən müddətdə xidmətin bərpası üçün müraciət etməyən abunəçi yenidən xidmətdən istifadə etmək istədikdə operatora müraciət edir və texniki imkanlıq

olduqda, onunla yeni qoşulma müqaviləsi bağlanılır. Təkrar xidmətə qoşulan abunəçi qoşulma haqqını və əvvəllər istifadə etdiyi xidmətə görə operatora yaranmış borclarını ödəməlidir.

3.7. Abunəçi ilə bağlanmış müqaviləyə xitam verilməsindən sonrakı 2 (iki) ay ərzində onun tərəfindən "Telekommunikasiya operatoru"nun telefon rabitəsi xidmətlərindən istifadə bərpa edilməzsə, abunəçinin adına olmuş nömrə digər abunəçilərə verilə bilər.

3.8. Telekommunikasiya şəbəkəsinə qoşulmuş abunəçinin son avadanlıqlarında nasazlıqların aradan qaldırılması üzrə xərclər abunəçi tərəfindən ödənilir.

3.9. "Abunəçi" qəbul edir ki, onun istifadə etdiyi xidmətlərdən hər-hansı birinə görə yaranmış borcu edilmiş xəbərdarlığa baxmayaraq iki ay ərzində ödənilmədikdə "Telekommunikasiya operatoru" ona göstərilən digər telekommunikasiya xidmətlərini də dayandıra bilər.

3.10. "Abunəçi"yə internet və digər genişzolaqlı xidmətlər müvafiq telefon nömrəsi üzərindən verildikdə, qoşulmanın edildiyi telefon nömrəsinin borca görə bağlı olduğu müddətdə həmin xidmətin göstərilməməsinə görə abunəçinin əvvəlcədən ödədiyi lakin istifadə edilməmiş aylıq məbləğ ona geri qaytarılmır.

3.11. İnternet xidməti telefon nömrəsi üzərindən verildikdə və nömrənin istifadəçisi ilə internet xidmətinin istifadəçisi eyni şəxslər olmadıqda, telefon nömrəsinin abunəçisinin yazılı tələbi ilə internet xidmətinin verilməsi internet xidməti abunəçisinə xəbərdarlıq edilməklə dayandırılır.

3.12. Qanunvericilikdə baş vermiş dəyişikliklər və ya bazar konyukturasının əhəmiyyətli dərəcədə dəyişməsi səbəbi ilə "Telekommunikasiya operatoru" tərəfindən tariflərdə dəyişikliklər edilərsə, "Abunəçi" bu barədə azı 10 (on) gün əvvəlcədən məlumatlandırılmalıdır. "Abunəçi" yeni tariflərlə xidmətlərdən istifadə etmək istəmədikdə yazılı (o cümlədən, e-mail) şəkildə müraciət etməklə, müqaviləyə xitam verə bilər. Bu cür yazılı müraciətin olmaması yeni tariflər üzrə razılaşmanın əldə edilməsi kimi qiymətləndiriləcəkdir.

3.13. Müqaviləyə vaxtından əvvəl xitam verilməsi "Abunəçi"ni yaranmış borcları ödəmək məsuliyyətindən azad etmir.

3.14. "Abunəçi"nin telekommunikasiya şəbəkəsinin bölüşdürücü qutusundan 100 metrədək məsafədə telekommunikasiya xidmətlərinə (Ayrılmış İnternet Kanalı üzərindən xidmət, Birbaşa rabitə xətti və birləşdirici xətt istisna olmaqla) qoşulması və zəruri təmir işləri "Telekommunikasiya operatoru"nun hesabına həyata keçirilir. Göstəriləndən artıq məsafədə telekommunikasiya xidmətlərinə qoşulma və təmir işləri üçün zəruri olan xərclər "Telekommunikasiya operatoru" tərəfindən hazırlanmış smetaya uyğun olaraq"Abunəçi" tərəfindən ödənilir.

## 4. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

4.1. Bu müqavilə hər iki tərəfdən imzalandığı tarixindən qüvvəyə minir.

4.1.1. Əhali qrupundan olan "Abunəçi" 10 (on) gün, qeyri-əhali qrupundan olan abunəçi isə 1 (bir) ay əvvəlcədən "Telekommunikasiya operatoru"nu yazılı (o cümlədən, e-mail ) şəkildə xəbərdar etməklə Müqaviləyə vaxtından əvvəl xitam verə bilər.

4.1.2. "Abunəçi" Müqavilənin şərtlərini, qanunvericiliyin tələblərini pozduqda "Telekommunikasiya operatoru" tərəfindən Müqavilə müvafiq qaydada xəbərdarlıq edilməklə ləğv edilə bilər.

4.1.3. Tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılaşdırma yolu ilə, tərəflər razılığa gəlmədikdə isə qanunvericiliyə uyğun olaraq məhkəmə qaydasında həll olunur.

## 5. YEKUN MÜDDƏALAR

5.1. "Telekommunikasiya operatoru" ondan aslı olmayan səbəblərdən xidmətin təchiz edildiyi avadanlığın yerləşdiyi yerlərin su ilə dolması, yanğının baş verməsi və digər xarici təsirlərə məruz qalması, elektrik təchizatında kəsilmənin və ya qüsurların olması və digər bənzər halların baş verməsi nəticəsində xidmət göstərilməsinin dayanmasına və ya xidmətin səviyyəsinin aşağı düşməsinə görə məsuliyyət daşımır və belə halların mövcudluğu keyfiyyətsiz və ya qüsurlu xidmət kimi qiymətləndirilmir.

5.1.1. "Abunəçi" iki və daha çox ay üçün xidmət haqqını əvvəlcədən ödəyə bilər. 3.12-ci bənddə göstərilən qaydada tariflər dəyişdikdə, abunəçinin istifadə edilməmiş ödədiyi məbləğ yeni tariflərə uyğun qaydada ödənişə hesablanacaqdır. Müqaviləyə 3.12-ci bənddə göstərilən əsasla xitam verildikdə, xitam verilmə gününədək istifadə edilməmiş məbləğ "Abunəçi"yə qaytarılır.

5.1.2. "Abunəçi" tərəfindən seçilmiş xidmətin göstərilməsi şəraiti və şərtləri tələb etdikdə həmin xidmətin göstərilməsi ilə bağlı ayrıca müqavilə bağlana bilər.

5.1.3. Abunəçi barəsində məlumatların sorğu məlumat mənbələrində götərilməsinə etiraz

☐ etmir ☐ edir.

5.1.4. Bu Müqavilə 2 əsl nüsxədə imzalanmışdır, 1 nüsxə "Telekommunikasiya operatoru"nda, digər nüsxə isə "Abunəçi"də saxlanılır.

5.2. Tərəflər Müqavilənin müddəaları ilə tanış olduqlarının, onun şərtərini qəbul etdiklərinin ifadəsi kimi Müqavilənin imzalayırlar.

BAKTELECOM

## 6 Xüsusi şərtlər (əgər varsa)

1) ………………………………………………………………………………………………………………………………………………………

2) ………………………………………………………………………………………………………………………………………………………

3) ………………………………………………………………………………………………………………………………………………………

## 7 Tərəflərə dair vacib məlumatlar

| «Abunəçi» fiziki şəxs | «Abunəçi» hüquqi şəxs | BTR MMC |
|---|---|---|
| Soyadı, adı, atasının adı:…………………………<br><br>……………………………………………………<br><br>Sənədin adı:……………………………………….<br><br>Seriya və nömrəsi:..…………………………….<br><br>Fərdi identifikasiya nömrəsi (FİN)<br>____________________________________<br><br>Verilən tarixi və orqanın adı:……………………..<br><br>Vətəndaşlığı: ☐ Azərbaycanlı ☐ Əcnəbi<br><br>Anadan olduğu yer və tarix:………………………<br><br>……………………………………………………<br><br>Qeydiyyat ünvanı və poçt indeksi:..………………<br><br>……………………………………………………<br><br>Yaşadığı ünvan və poçt indeksi:...............................<br><br>.............................................................................<br><br>Çəkiliş ünvanı və poçt indeksi:..………………… | H/şəxsin adı:………………………………….<br><br>Qeydiyyat ölkəsi:..………………………..<br><br>Hüquqi ünvanı:..……………………………..<br><br>…………………………………………………<br><br>Faktiki ünvan:..……………………………..<br><br>…………………………………………………<br><br>VÖEN: ...................................................................<br><br>Bank: .....................................................................<br><br>Bankın VÖENi: ....................................................<br><br>KOD: ....................................................................<br><br>M/H: ......................................................................<br><br>H/H: ......................................................................<br><br>S.W.I.F.T: ...............................................................<br><br>Səlahiyyətli nümayəndəsinin soyadı adı, | Ünvan: Bakı ş., Üzeyir Hacıbəyov, 48<br><br>Poçt indeksi: AZ 1000<br><br>VÖEN: 9900044741<br><br>Bank: Azərpoçt MMC-nin 1 saylı Poçt Filialı<br><br>Bankın VÖENi: 9900037711<br><br>KOD: 691011<br><br>M/H: AZ76NABZ01350100000000094944<br><br>H/H: AZ14AZPO91015461200420100157<br><br>S.W.I.F.T: AZPOAZ22<br><br>Məsul şəxsin adı/soyadı:…………………<br><br>…………………………………………<br><br>…………………………………………<br><br>Vəzifəsi:…………………………………<br><br>Əlaqə telefonları:…………………………<br><br>E-mail: …………………………………… |

BAKTELECOM

| | | |
|---|---|---|
| ……………………………………………………<br><br>İş yeri və vəzifəsi:……………………………………………<br><br>……………………………………………………<br><br>Əlaqə telefonları (şəhər):…………………………<br><br>Əlaqə telefonları (mobil):…………………………<br><br>E-mail:……………………………………………<br><br>Müqaviləni qəbul edən şəxsin soyadı, adı, atasının adı və telefon nömrəsi<br><br>……………………………………………………<br><br>……………………………………………………<br><br>…………………………………………………… | atasının adı:…………………………………<br><br>Vəzifəsi:………………………………………<br><br>Sənədin adı:. …………………………………<br><br>Seriya və nömrəsi:..…………………………<br><br>Verilən tarix və orqanın adı:…………………<br><br>Abunəçinin əlaqə telefonları:.………………<br><br>E-mail:………………………………………<br><br>Müqaviləni qəbul edən şəxsin soyadı, adı, atasının adı və telefon nömrəsi<br><br>……………………………………………… | |

**Abunəçinun qoşulduğu telekommunikasiya xidmətləri (müvafiq xana işarələnməklə seçilir):**

| № | Telekommunikasiya xidmətlərin növləri | Istifadəyə verilən xidmət | | Qoşulma haqqı | Abunə haqqı | Qeydlər (İnternet xidmətlərinin sürətləri, CDMA (limitli və ya limitsiz), GPON texnologiyası ilə təqdim edilən xidmətlərin siyahısı və sair) |
|---|---|---|---|---|---|---|
| | | Bəli | Xeyr | AZN Birdəfəlik ödəniş | AZN Aylıq ödəniş | |
| 1 | Telefon çəkilişi (nömrə/nömrələr) | | | | | |
| 2 | İnternet – ADSL | | | | | |
| 3 | İPTV | | | | | |
| 4 | GPON | | | | | |
| 5 | İnternet – ayrılmış xətt | | | | | |
| 6 | Statik IP ünvan | | | | | |
| 7 | CDMA tipli telefon çəkilişi | | | | | |
| 8 | İP Telefon çəkilişi | | | | | |
| 9 | Birləşdirici xətt çəkilişi | | | | | |
| 10 | Birbaşa rabitə xətti | | | | | |
| 11 | Rəqəmsal kanal | | | | | |
| 12 | Ethernet port icarəsi | | | | | |
| 13 | Video telefon | | | | | |
| 14 | İnternet VDSL | | | | | |
| 15 | Servis xidmətləri: | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Şəhərlərarası və beynəlxalq rabitə çıxışının bağlanması | | | | | |
| | Sifarişli şəhərlərarası və beynəlxalq danışıq xidməti (“107”) | | | | | |
| | Əsas telefon xəttinə qoşulan Mini-ATS | | | | | |
| | Faks | | | | | |
| 17 | Digər xidmətlər:<br><br>.................................................................................................... | | | | | |
| 18 | Digər Xidmətlər (qeyd edin)<br><br>.................................................................................................... | | | | | |

**Xidmət müəssisəsinin rəhbəri** **Abunəçi:**

_____________________________________________ _____________________________________________